# Güntay Gəncalpın yazıları və tariximiz



Sabir RÜSTƏMXANLI

*Əvvəli ötən sayımızda*

* * *

Güntay Gəncalpla söhbətimizin davamı

Əziz Güntay!

Son yazışmamızda təkcə səni yox, ziyalılarımızın çoxunu düşündürən sorular var. "Niyə bu durumdayıq, niyə tarix boyu etdiyimiz səhvlərdən nəticə çıxara bilmədik?"-onların ən başlıcasıdır. Bu arada Xaləddin İbrahimli də söhbətə qarışaraq, bizi mövzusuz danışmaqda, "tarixi olaylara filoloji təfəkkürlə yanaşmaq" da suçlayaraq, tarixi tarixçilərin inhisarı altına almağa çalışır və ağsaqqal məsləhəti vermək həvəsinə düşür: "Əfəndilər, bir-bir..." Yaxşı məsləhətdir, lakin diqqətlə baxsa, görər ki, biz elə bir şeydən danışırıq.

### 1.Biz və vətənimiz

Güntay bəy! Tarix, tarix elmi və tarix fəlsəfəsi haqqında düşüncələrini və bu düşüncələrin ifadə tərzini bəyəndim. Dövlətlərimiz, bir sıra tarixi şəxsiyyətərimiz və onlara münasibətin milli ideologiyaya uyğun qurulması məsələsində fikirlərimiz fərqlidir, lakin bu, normal bir işdir. Bu barədə düşüncələrimi mən ötən məktubumda yazmışdım. Zatən türklərin tarixində, o cümlədən Azərbaycan və Osmanlı türklərinin tarixində anlaşılmaz, təəssüf doğuran, bugünkü faciələrimizə səbəb olan faciəli, hətta bağışlanmaz yanlışlıqlar çoxdur. Lakin bu, artıq tarixdir, dəyişmək və öz istəyimizə uyğun yenidən qurmaq mümkün deyil; tənqid eləmək olar, inkar etmək olmaz...

Məncə, zaman da axar su kimidir. Bulandığı kimi də durulur. Yaralar sağalır, dərdlər unudulur. Dünyada daimi qalib, daimi məğlub yoxdur. Hər yolun eniş-yoxuşu, hər xalqın öz haqqına yetmə vaxtı var. Haqq isə, məncə, həmişə mənəvi kamilliyin qonşulugundadır. Buna görə insanın da, xalqın da özünütəsdiq yolu əzablardan və mənəvi təmizlənmələrdən keçir.

Bu yolun hansı mərhələsindəyik, bu sonsuz nərdivanın hansı pilləsindəyik? Cavab vermək çətindir.

Dünyanın öngörənləri yalnız keçmişi yaxşı görə bilir. Əl və üz xətləri gələcəyin yox, keçmişin yazısıdır, bərkdən oxunanda gələcəyin də qulağına çatır! Gələcəklə bağlı oxunan bütün nəğmələr keçmişin nəğmələridir.. Amma burası da var ki, yayından çıxan oxun hara düşəcəyini,təxmini də olsa bəlirləmək mümkündür.

... Rusiyada məşhur tarixçi-alim, etnoqraf Lev Qumilyovun kitablarının nəşrinə icazə verilməyən bir vaxtda mən Bakıda onun "Xəzər ətrafında minillik" adlı kitabını rus dilində nəşr etdim. Bundan sonra onun azərbaycanlı aspirantı Akif Fərzəliyev (indi Sankt-Peterburqda çalışır) zəng vurdu, təşəkkür etdi və Qumilyovun mənimlə danışmaq istədiyini söylədi. Böyük alim kitabının nəşrinə görə razılığını bildirəndən sonra Bakıdakı vəziyyətlə maraqlandı. Mən onun başqa əsərlərini də nəşr etməyə hazır olduğumuzu dedim...Telefon söhbətində Qumilyovun iki ifadəsi dəqiq yadımdadır: "Siz ermənilərin avantürasına uymayın, qoy onlar saxta tarixlərlə özlərini nə qədər qədimləşdirirlər, qədimiləşdirsinlər. Əksinə, siz fəxr edin ki, azərbaycanlılar nəhəng və əbədi Türk ağacının gənc qollarından biridir. Qocalıqla yox, gəncliklə öyünmək lazımdır." İkinci ifadəsi isə mənim üçün lap gözlənilməz idi. O dedi: "Rusiyada mənim əsərlərimin nəşrinə qadağa qoyulan bir vaxtda Azərbaycanda sizin kimi adam tapılır və kitabım nəşr edilirsə, o zaman mən bütün arxivimi Azərbaycana bağışlayacağam." Akif bu söhbətin şahididir .Təəssüf ki, sonra ara qarışdı, köhnə sovetlər birliyini münaqişə ocaqlarının alovları bürüdü və böyük alimin arxivinin taleyindən də xəbər tuta bilmədim.

Bu xatirəni yazmaqla demək istəyirəm ki, tarixi ideallaşdırmaq və qədimləşdirmək cəhdləri mənasız işlərdir. Onsuz da türklərin tarixi dünyanın ilk sivilizasiyaları ilə bağlıdır. Lakin türklər Səməndər quşu kimi öz küləndən doğularaq, ölüb-bitdi sayıldığı yerdən yenidən dirçəlməyi bacaran xalqdır. Və Azərbaycanın insanlığın ən qədim məskənlərindən biri olduğu da inkaredilməzdir.

Dünya bir savaş meydanıdır və mənim fikrimcə, bu savaşı *inamlılar*, ruhlular, silaha yox, mənəvi gücə güvənənlər udacaq! Namərdliyi, riyakarlığı, şöhrət və mənsəb ehtirasını, şeytana quyruq bulamaq xəstəliyini rədd etməsək millətimizə nicat və rahatlıq yoxdur.

Azərbaycan intibahı milli ləyaqətin dirçəldilməsindən, inamdan, etiqaddan, halallıq və fədakarlıqla yorulmadan çalışmaqdan, öz torpağımızın və alimizin əməyinin düzgün dəyərləndirilməsindən başlanacaq! Bu tarixin ibrət dərslərindən biridir!

Biz ərazimizi itirmişik, ruhumuzu yox! "Tarix təcrübəsi göstərir ki, ərazi işğalı ictimai tərəqqinin yox, ictimai çöküşün, çürümənin əlamətidir" (A.Toyribi). Bütün inkişafların kökü şəxsi məsuliyyətdədir...Allahı olan, böyük ideallara bağlı xalqın gücü tükənməzdir... Belə xalqı öldürmək olmaz, özünü ölümə aparmasa, intihar eləməsə... İnam və iradə varsa, müvəqqəti uduzsan da, sonda qalib gələcəksən. Yorulub, əlini yanına salıb otursan həmişəlik uduzacaqsan. Haqq savaşından yorulmaq - ölümlə barışmaqdır. Buna görə də sənin intihar fikrindən uzaqlaşır, təkbaşına da olsa savaşmaq, qaranlıqları, aydınlatmaq, milli mücadiləmizi davam etdirmək qərarını ən doğru qərar sayıram. Zatən bütün böyüklər öz təkliklərində böyükdür və bizim taleyimizə milyon insan arasında olsaq da dərdlərimizlə baş-başa, təklənib yazmaq düşüb.

Yaşamaq - ilkdən sona fasiləsiz bir mücadilədir.

Şəxsi iradə olmadan insan, milli iradə olmadan millət xoşbəxtliyə qovuşa bilməz.

Milli iradə zərrə-zərrə, söz-söz toplanan tükənməz bir ruh qaynağı, ruh enerjisidir. Elə bir enerji ki, onu silahla məhv etmək olmaz.

### 2.Bizə tarix lazımdırmı?

Onlarla tərifi var tarixin; bu o deməkdir ki, bu qədər də umacaq var ondan, bu qədər də vəzifə yükləyirlər onun boynuna. Tarixöyrənmə sənətinə dəyər verən və keçmiş təcrübənin toplumun gəlişməsinə qatqısını yüksək qiymətləndirən saysız fikir söylənildiyi kimi, ötənləri öyrənməyin mənasız bir iş olduğuna dair mülahizələr də yetərincədir. Bir tərəfdə "keçmiş gələcəyin anasıdır"; "tarix bəşəriyyətin tərcümeyi-halıdır"; "yalnız keçmişi olanların gələcəyi var"; "keçmişinə güllə atanları gələcək topa tutacaq", "tarix bizə keçmidə nəyin necə baş verdiyini aydınlaşdırmaq üçün lazım deyil, canlanan keçmişin bizim kimliyimizi göstərməsi və gələcəyə yol açması üçün lazımdır" kimi, bəşəriyyətin təcrübəsinə hörmətlə yanaşmağa səsləyən fikirlər, digər tərəfdə də "tarix yalnız onu öyrədir ki, o xalqlara heç nə öyrətməyib"; "ümumdünya tarixi, ümumdünya məhkəməsidir"; "tarix bir cəbbəxanadır, hərə ordan özünə lazım olan silahı seçir"; "tarix son dərəcə şübhəli və zərrəcə mənası olmayan illər və hadisələr toplusudur"; "bəzi tarixçilər öz yalanlarını ölülərin danışa bilmədiyinə arxayın olub yazırlar..."; "tarixi qəliblər yazır" kimi tarix elmini gözdən salan, onun rolunu şübhə altına alan mülahizələr səslənir. Tarixçilik də bu ziddiyyətlərin içində öz yolunu davam etdirməkdədir...

> **Tarix təbiət kimi ölüb getmir, nəsillər arasında körpü salır, insanlığın məsuliyyətini artırır. Ayağımızın altında tarix pillələri nə qədər çoxdursa, biz o qədər ucayıq.**

Tarixşünaslıq - ötüb keçmiş zamanları və insanlığın tərcümeyi-halını öyrənən bir intellekt işidir... Bu araşdırma sahəsinin ən geniş yayılmış və ən sadə tərifi, məncə, belədir. Tarix araşdırmaçılığının əsas görəvi olayların ardıcıllığını, nədənlərini, insanlığın gəldiyi yolları öyrənmək; keçmişimiz haqqında bilgilərimizi düzənləyib, sistemə salmaqdır... Bir filosofun sözüylə desək, tarixçi Allah kimi, hamını və hər şeyi bir gözdə görməli, hətta şeytanı da sevməlidir... Tarixçi-istər dost haqqında yazsın, istər düşmən, yalandan, həqiqəti gizlətməkdən, şübhə yaratmaqdan qorunmalıdır...

Təəssüf ki, qonşularımız saxta tarixlər uydurmağın və bu uydurmaları dünyaya yaymağın ustalarıdır.

Buna görə də biz öz tariximizə daha diqqətlə və sevgiylə yanaşmalıyıq...

Tarix kitabları tarixçilərin bəhs etdiyi zaman və olaylar haqqında düşüncələridir, bəs həmin tarixdə yaşayanlar necə düşünürdülər? Bu gün həmin hadisələri və yaşananları bilməyə bir ehtiyac varmı? Tarix ilğımlarında özünü böyük görənlərin iddiasi dünyaya bu qədər savaş, fəlakət gətiribsə, bəlkə birdəfəlik keçmişin üstünə qara bir pərdə çəkib onu unutmaq lazımdır? Ancaq tərəzinin digər gözündə alternativ fikir də var: məhz tarixi təcrübəni bilmək insanlığı olmuşlardan daha ağır fəlakətlərdən qorumuşdur.

Bəşəriyyətin kimliyini və keçmişini unudub kütləvi şəkildə manqurtlaşması və düşüncə donuqlugunda, yaddaş vakuumunda yaşaması mümkün deyil...

### 3.Tarix və ədəbiyyat, yaxud tarixə filoloji yanaşma

Tarix ruhunu dərk etmədən yaşamaq olmaz. Bizdən nə qədər uzaq, ölü, mənasız görünsə də, əslində biz bu tarix ruhundan, onun söz və düşüncə tərzindən doğulmuşuq, onun budağında yetişmişik.

Tarix təbiət kimi ölüb getmir, nəsillər arasında körpü salır, insanlığın məsuliyyətini artırır. Ayağımızın altında tarix pillələri nə qədər çoxdursa, biz o qədər ucayıq.

Yazıcı üçün tarixin başqa,özəl bir dəyəri də var: tarix təkcə keçmişin düşüncəsi deyil ,həm də düşüncənin keçmişidir... Tapixin dişinə vurduğu, sınaqdan keçirdiyi ideyaları öyrənməklə onu milli ideyamızın fəal balansına qoşur, tarix dəyirmanlarının suyunu bizim arxlara bağlayır. Bu mənada tarix tarixçilərlə yanaşı ədəbiyyatçıların da araşdırma meydanıdır. Bədii söz tarixə işıq salır, faktları yox, ruhu canlandırır...

Aristotelə görə "bədii ədəbiyyat dəqiq tarix təzkirələrindən daha elmi və daha düzgündür. Romantik sənət olayların tam mahiyyətinə nüfuz edir, təfərrüatların sadalanması isə quru hesabatdır." Onun fikrincə tarixçi-baş vermiş, şair isə baş verə biləcək hadisələrdən danışırlar. Buna görə də poeziya tarixdən daha fəlsəfidir, çünki poeziya ümumi olanı göstərir, tarixçi isə tək bir hadisəni...

Bizcə, tarix insanın hərəkətini, ədəbiyyat düşüncələrini öyrənir. Hərəkət cismə, materiyaya, düşüncə ruha bağlıdır. Biri yerdir,biri göy! Ədəbiyyatın qanadları var, tarix qanadlana bilməz.

Tarix bitmiş bir prosesdir, ona əlavələr etmək, öz xeyrinə dəyişmək günahdır. Təəssüf ki, tarixşünaslıq bu baxımdan çoxdan etibarını itirmişdir...

Çünki bir sıra elm sahələri kimi tarix də daha çox hökmdarlara, yazılanlara sahib çıxa və qorumağa imkanı olanlara xidmət etmişdir: bu amacla yazılmışdır.

Bizi isə xalqın tarixi ilgiləndirir.

### 4. Tarix və tarixçilər

Tarix adına iddialı qədim, daha doğrusu, ilkin yazılar çoxunluqda olayları nağıl etmək sənətiydi... Yəni qədimin hadisələri, istər-istəməz, danışanın, yazanın - "tarixçinin" şəxsi və ya bugünkü anlayışla desək, "milli" maraq, məntiq, meyl və ehtiraslarının meyvəsi kimi yetişirdi; subyektiv yanaşmalarla, dəqiq olmayan, bəzən də əsatir, folklor səviyyəsində olan dəyərləndirmələrlə dolu olurdu.

Bu özəlliklər tarix yazarlığını - bütün tarix boyu ara verməyən bir müzakirə mövzusuna çevirmişdir. Yəni tarixi öyrənənin özünün də öyrənilməsinə və dəyərləndirilməsinə ciddi bir ehtiyac vardır. Əslində, bütün böyük tarixçilər bu mövzu ətrafında düşünmüşlər. Nəyi yazdıqları və yazdıqlarının nəyə xidmət etməsi, istər tarixçi olsun, istər yazıçı, heç bir ciddi qələm sahibini rahatsız etməyə bilməz...

Tarixə yanaşmanın hamıdan tələb olunan, qanuniləşmiş metodu yoxdur. Bu, Herodot dövründə də belə idi, indi də belədir.

Daha önəmli və daha mürəkkəb bir məsələ də var. Bu da tarixşünaslığın öyrənmə obyektinin dərkolunmazlığıdır; yəni bəşəriyyətin bu qədər uzun yol keçməsinə, xalqların qarşıdurmalarının, sivilizasiyaların qalxma və enmələrinin, müharibələrin, hakimiyyət uğrunda mübarizələrin, bir sözlə, tarixin bu qədər bənzərliklərlə, təkrarlarla dolu olmasına baxmayaraq bu proseslərin ümumu qanunauyğunluqlarını aydınlaşdırmaq mümkün olmamışdır; ya belə bir qanunauyğunluq yoxdur, ya da dünya tarixi o qədər mürəkkəb və çoxcəhətlidir ki, ümumiləşmə aparmaq mümkün deyildir. Buna görə də keçmişi öyrənən, onu gələcəyə qorumaq məqsədi güdən bu qədər kitablar yazılsa, bu qədər "nəzəriyyələr" irəli sürülsə də, tarixin başlıca inkişaf modelini, onun hansı şərtlər daxilində necə gəlişdiyini ortaya qoymaq mümkün olmamışdır. Buna görə də insanlığın gələcəyini praqnozlaşdırmaq, buna cəhdlər olsa da, mümkün deyildir...

Çinli Sima San, avropalı Avreliy Avqustin, ərəb İbn Xaldun, türk Rəşidədin və dünyanın biri-birindən dəyərli tarixçiləri... cild-cild tarixi əsər yazmaqla yanaşı, tarixin qanunauyğunluqlarını aşkarlamağa və tarixşünaslığın metod və üsullarını buna uyğunlaşdırmağa ağlasığmaz bir zəhmət sərf etmiş, qeyri-adi ağıl və səbirlə qələm çalmış, araşdırmalar aparmışlar. Hərəsi keçmişə bir yandan yanaşmışdır; biri tarixin səhvlərini, biri hadisələrin xronoloji ardıcıllığını, biri böyük köç və yerdəyişmələri, biri xalqların tarix səhnəsində enib-qalxmalarını, biri hökmdarların həyatı və idarəçiliyini, biri müharibələrin yaranma nədənləri və gətirdiyi fəlakətləri, biri inqilabların dağıdıcılıq və quruculuq enerjisi-

ni önə çəkmişdir. Bəşəriyyətin, ayrı-ayrı cəmiyyətlərin gəlişmə qanunauyğunluqları adına onlarla ideya və "nəzəriyyə" irəli sürülüb... Bəziləri iddia edir ki, cəmiyyət, fizika kimi, dəqiq qanunlarla yaşayır; ardınca başqaları deyir ki, tarixi inkişaf heç bir bəlli qanuna və ya məntiqə sığmır, belə bir qanun yoxdur, varsa da, onu aşkarlamaq mümkün olmamışdır.

Etiraflar maraqlıdır: tarixin mənası çox böyükdür, ancaq insan ağlı onu tam dərk etmək gücündə deyil... Örnəyi: "Keçmişəgər onun dərinliklərinə dalsan, elə mürəkkəb şərait və səbəblərə bağlıdır ki, insan ağlı onu izah etməkdə çətinlik çəkir..." (Lev Tolstoy)

Bütün bunlar, tarixin özü kimi, tarixçiliyi də çətin duruma salır; çünki öyrənilən sahənin qanunauyğunluqları müəyyən deyildirsə, onu araşdırma metodlarında da sistem yarana bilməz və bu sahəylə bağlı əsərlər də həmişə mübahisəli olacaq...

Tarixi təbiətin bir parçası kimi öyrənmək istəyənlərin sayı-hesabı yoxdur. Yəni insan cəmiyyəti və onun tarixi də bioloji orqanizm kimi doğulur, yaşayır, ölür. Bu xəttə yaxın olan tarixçilər yer üzündə yaranmış sivilizasiyaları təbiətin konkret çağırışına cavab hesab edirlər...

Böyük köçlər, koşflər, sənayedə inqilab, iqtisadi inkişaflar və böhranlar, dialektik materializm, modernləşmə, qiymətlərin qalxması və enməsi, demoqrafik dəyişikliklər, passionarlıq və s. Hər tarixçi cəmiyyətin inkişafına və xalqların enişi və yüksəlişinə səbəb olan gizli təkan nöqtəsini bu sayılanlardan birində axtarmışdır... Ancaq sonucda bu modellərin heç biri sivilizasiyaların və cəmiyyətlərin inkişaf və süqutunun səbəblərini, qalxma-enmə dövriliyini aça bilmir... Buna görə də son dönəmlərdə keçmişin riyazi müstəvidə öyrənilməsinə, xronologiyaların dəqiqləşdirilməsinə meyl artır. Ancaq bu tarix sadalamaları və xronologiyalar da sonda sistemsiz rəqəm zəncirləməsindən başqa bir şey deyildir. Yəqin bütün bunlara görə də postmodernistlər tarixçiliyin obyektiv ola biləcəyinə ümumiyyətlə inanmırlar...

Görünür bu axtarış qısırlığının əsas nədəni tarix qapısına salınan açarlardadır. Tarixə başqa elmlərin ənənəvi açarları düşməz! Tarixi elmlərin dar çərçivələri əhatə edən, empirik qanunlarıyla dərk emək olmaz!.. Bəlkə unudulan başqa amillər də var: Allahın iradəsi, ruh və mənəviyyat!.. Yer tarixiylə kosmosun əlaqəsi!

İnsanlıq var olduqca bu axtarışların davam edəcəyi də ciddi ehtimallardan biridir; çünki yol bitməyib, bu gün yaşananlar sabahın tarixinə çevrilir və gedişatın yeni modellərinin doğulması prosesi arasıkəsilməz və sonsuz bir işdir...

Qonşularımızın və bir sıra özünə uydurma tarixlər yaradan və bunu həqiqət kimi dünyaya yayan xalqların cild-cild yalanlarını düşünəndə yeni suallar yaranır: tarix elmdir, yoxsa incəsənət, faktların sadalanmasıdır, yoxsa sərbəst düşüncə, bədii ədəbiyyat? Əgər elmdirsə, onda elmin hansı sahəsinə aiddir? Buna görə də bir sıra filosoflar tarixçiliyə ümidsiz baxırlar: "Tarix hələ elm deyil, onu yalnız... susdurmaq yoluyla elmə çevirmək olar..."

### 5.Bizim tarixçiliyimiz

Bizim tarix araşdırıcılığı daha ağır yol keçib və daha çətin suallarla qarşılaşıb... Tarix araşdırmaçılığımızdan bizə əsasən iki cür örnəklər gəlib çatmışdır: 1.Saraylarda yazdırılan salnamə və mədhiyyələr; 2.Hakim din və ideyaların "əsərlər"i... Güneydə fars şovinizmi, quzeydə rus imperiya siyasəti və sonralar marksizm ideyasının tarix kitablarımızın çoxuna nihilist bir özünüunutqanlıq aşılamışdır... Buna görə də son ikiyüz ildə Quzey Azərbaycanda yazılanlar Rusiyanın, o tayda yazılanlar, daha çox İranı Farsistana çevirmək istəyənlərin maraqlarına xidmət göstərmişdir.

Azərbaycan hökmdarlarının himayəsində yazılan xronologiyalar isə milli tarixin xırda epizodları və ya yarpaqlarıdır.

Bu gün tariximizə yanaşmamızın alt niyyətlərinə işıq tutmaq asanlaşıb.

İndiyə kimi Azərbaycan coğrafiyasında baş verən olayların, mövcud olmuş dövlətlərin tarixi yazılıb əsasən. Azərbaycan türk xalqının tarixi yazılmayıb, səbəbini söylədim artıq.

Tarixçiliyimiz ənənəvi olaraq ərəb, fars, xristian (erməni kilsə yazıları), suriani, Avropa, rus, Çin və s. mənbələrə söykənmişdir. Bu mənbələrin istisnasız hamısı və ya böyük əksəriyyəti turklərə və o cümlədən Azərbaycan türklərinə, səbəbini başa düşmək çətin olmayan, subyektiv, birtərəfli və bir çox hallarda düşmən mövqeyini əks etdirir. Həmin mənbələr, yuxarıda dediyim kimi, əksər hallarda öz xalqının və ya mənsub olduğu dairənin maraqlarini ifadə edirdilər. Amma bizim tarixçilərimizin ən yaxşıları bununla qürur duyurlar ki, həmin mənbələrə əsaslanırlar; o mənbələrin düşmənçilik ruhunu bilə-bilə... Öz tariximizin yazıya bağlı olan dövrü isə, əsasən ümumislam dərsində əridilib; xalq maraqlarından çox ümmət və din maraqlarına söykənib. İslamdan kənarda qalan qədim turk yazılarının coğrafiyası da çox geniş olduğundan, Monqolustandan, Sibirdən, Çindən üzübəri bütün türk dünyasını əhatə etdiyindən, ərazimizin yox, xalqımızın tarixinin bəlli dövrlərinin yazılmasında yardımçı ola bilər.

Yad yazılı mənbələrə etibar olmayan yerdə ümid qalır doğma sözün qoruya bildiklərinə, yaddaşlarda qorunana, yer-yurd adlarına-toponomikaya, etimologiyaya, yəni sözlərin soy kökünü öyrənən elmə və torpağın etibarli hafizəsinə - arxeologiyaya... Təəssüf ki, bu sahələrin heç biriylə ardıcıl, peşəkarlıqla məşğul olmamışıq; uzun müddət bu elmlərin də acarlarını başqalarına etibar etmişik... Azərbaycan-türklərinin ən parlaq ədəbi-tarixi əsərlərindən sayılan Dədə Qorqud boyları da folklordur; reallığa nə qədər yaxın olsalar da, "ciddi" tarixçilərin şəkillənmiş stereotiplərinə uyğun sayılmayacaqdır...

Beləliklə, görünən budur ki, Azərbaycanın obyektiv tarixi yaxın zamanlara qədər daim müxtəlif basqılar altında olub,repressiyaya ugrayıb, saxtalaşdırılıb, yad siyasətlərin əsirinə çevrilib...

Əsl milli tarix milli hökumətin vaxtında yazıla bilərdi. Bu imkan 1918-ci ildə yarandı, lakin vaxt çatmadı.

1991-ci ildə müstəqilliyimizin bərpası tarixçiliyimizin inkişafı üçün real şərait yaratdı, buxovlar qırıldı və keçmişimizə sərbəst, obyektiv yanaşmaq yolu tutuldu, qısa müddətdə önəmli addımlar atıldı; bir sıra dəyərli əsərlər yarandı, bu baxımdan Qarabağ, İrəvan xanlığı, Naxçıvan haqqında fundamental araşdırmalar özəlliklə qeyd olunmalıdır. Lakin köhnə basmaqəlib düşüncədən xilas yolunda əngəllərin hamısını hələ də aradan qaldıra bilməmişik... Bunun obyektiv və subyektiv səbəbləri var. Obyektiv səbəblər deyəndə tariximizə aid ilkin mənbələrin bir qisminin hələ də əldə olmaması, xüsusən xarici ölkələrdəki əlyazmaların bir qismindən xəbərsizliyimiz, peşəkarlıq və ziyalı mədəniyyətinin aşağılığı, qədim Şərq dillərini bilən və ilkin mənbələrə əli yetən mütəxəssislərimizin yoxluğu, yəni məlumatın üçüncü, dördüncü əldən alınması, Azərbaycanın da daxil olduğu bölgədə əski yazıları özümüzün öyrənməməyimiz, tarixi yerlərimizdə, o cümlədən Güney Azərbaycanda sərbəst arxeoloji axtarış aparmamağımız, tariximizə ümumtürk müstəvisindən kənarda baxılmaq cəhdi və s. göstərilə bilər... Ən çətin iş dünya tarix təcrübəsini dərindən bilən yeni alimlər nəslinin yetişdirilməsidir; köhnə nəslin beyninə yad ideolojilər və yanaşmalar o qədər ustalıqla yeridilib ki, onların bəziləri yanlış yollarını səmimi şəkildə əsl elm hasab edir, bildikləri saxta məlumatlara obyektiv elmi bilgi kimi ürəkdən inanırlar.

**Ədəbiyyat qəzeti.- 2017- ci il.- 22 iyul.- S. 11.**